# Şəhidlərin xatirəsinə dərin ehtiram

**Azərbaycan o günün səhərini - 27 sentyabrı çoxdan əhalinin gündəlik həyat tərzinə çevrilmiş internetsiz açdı. Yaxşı xatirimizdədir. Hamı televiziya verilişlərini, xüsusən də dövlət kanallarını izləməyə başladı. Bir anın içində xəbər hər yerə yayıldı: Dövlət başçısının əhaliyə birbaşa müraciəti yayımlanacaqdı.**




Artıq cəbhə xəttindən paytaxta və digər bölgələrə məlumatlar gəlməkdə idi. Yenə də gecə ermənilər cəbhə boyunca bir neçə yerdə təxribatlar törətmişdilər.

Bütün diqqətlər Ali Baş Komandanın birbaşa müraciətinə yönəlmişdi. Ali Baş Komandan təmkinlə danışırdı. Cəbhədə gecə baş vermiş təxribatdan və həmin erməni təxribatına verilən cavabdan bəhs edirdi. Bu çıxış təkcə ölkə əhalisinə yönəlməmişdi, həm də indiyə qədər məsələyə biganə qalmış dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara bir mesaj idi.

Daim sülh tərəfdarı olan, bütün beynəlxalq yığıncaqlarda Qarabağ probleminin həllinə sülh yolu ilə nail olmağa çalışacağını vurğulayan, xarici siyasətini sülh missiyası üzərində quran Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin səbri daha tükənmişdi. İndi onun dözmək fikri yox idi.

Ekran qarşısından bütün ölkə Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanın müharibəyə başlamaq qərarını alqışladı. Bir anın içində xalq ayağa qalxdı. Gənclər könüllü olaraq səfərbərlik idarələrinə axışdılar. Çünki ölkə rəhbərinin qərarı hamının ürəyincə idi. Otuzillik bir nisgilin sona çatması üçün, nəhayət ki, ilk addım atılmışdı. Əhalinin səbir kasası çoxdan daşmışdı. Bu qərarla ürəklər dağa döndü, insanlar qürur hisslərinə büründü, çiyinlər gərildi, başlar yuxarı qalxdı. Boğazlarda tıxanıb qalmış qəhər ötüb keçdi, adamlar rahat nəfəs almağa başladılar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətinin açıqlaması olacaqdı. Bir də günün sonunda Ali Baş Komandan "Tviter" səhifəsində döyüşün gedişatını və nəticələri bəyan edəcəkdi.

Əhali elə döyüşün ilk günündən rəsmi məlumatlar almağa başladı. Günün sonunda azad olunmuş kəndlərin adlarını eşitmək necə də sevincliydi. Yaxşı ki, bəzi yerlərdə əhalinin sevinc canfəşanlığı lentə alınıb, texniki vasitələr üzərindən onları izləmək necə də xoş idi.

Müzəffər Ali Baş Komandan çıxışında cəbhədəki vəziyyət barədə də danışdı. Döyüşlərin davam etdirildiyini söylədi. Ən əsası o idi ki, qoşunlarımız ön cəbhədə ermənilərin "keçilməz Ohanyan səddi" kimi tanıtdıqları müdafiə zolağını yarıb keçmişdi. Bununla da erməni ordusunun məğlubedilməzlik mifi darmadağın olmuşdu.

Azərbaycan Prezidenti İlham Əliyev zaman-zaman torpaqlarımızın hərb yolu ilə azad ediləcəyi variantının istisna olmadığını, sülh prosesində nəticə əldə olunmayacağı halda bu varianta əl atmaqdan başqa çıxış yolunun qalmadığını səsləndirmişdi. Dövlət başçımızın sülh çağırışlarına məhəl qoymayan ermənilər vaxtaşırı təxribat törətməyə davam edirdilər.

Müharibənin başladığı vaxtdan beş il ötür. Qədirbilən Azərbaycan xalqı Zəfərə aparan yolun başlanğıc günü sayılan 27 sentyabr gününü vətən torpaqlarının azadlığı yolunda canını fəda etmiş şəhidlərin əziz xatirəsini Anım Günü kimi qeyd edir. Həmin gün uşaqdan böyüyədək hamı Şəhidlər xiyabanlarına axışaraq şəhidlərin məzarını ziyarət edir, dualar oxuyur, xatirələrinə dərin ehtiramlarını bildirirlər.

"Şəhidlər ölməz, vətən bölünməz" şüarı altında cəm olmuş xalqımız Anım Günündə həm də dövlətə, qanunların aliliyinə, vətənin müqəddəsliyinə daima sadiq qalacağını bariz şəkildə dünyaya bəyan edir.

Daima Vətənin keşiyində dayanan Müzəffər Ali Baş Komandana, şanlı ordumuza və qəhrəman Azərbaycan xalqına eşq olsun!

Yaşasın AZƏRBAYCAN!

***Əli RZAQULİYEV,***
***ehtiyatda olan mayor,***
***müharibə veteranı,***
***İlham BABAYEV (foto)***

Azərbaycan.-2025.- 28 sentyabr (№208).- S.9.